# "Heydər Əliyev İli"nə bp-nin töhfəsi

**"Neft Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur".**

**Heydər Əliyev**



Azərbaycanın uzunmüddətli və etibarlı tərəfdaşı kimi bp Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə qeyd olunan "Heydər Əliyev İli"nə öz töhfəsi kimi yeni nəşr olunmuş dörd kitabın təqdimatını keçirib.

Kitablarda Azərbaycanın yeni müstəqil neft strategiyasının möhtəşəm tarixi, bu ölkənin yenidən dünyanın mühüm enerji mərkəzlərindən birinə çevrilməsi həqiqəti qiymətli tarixi faktlar və məlumatlar vasitəsilə nəql olunur.

Bu nəşr Azərbaycanın enerji salnaməsinin dörd əsas sütunu - Azəri-Çıraq-Günəşli (AÇG) neft yatağı, Şahdəniz qaz yatağı, Bakı-Tbilisi-Ceyhan (BTC) neft ixrac boru kəməri və Cənub Qaz Dəhlizi haqqındadır.

Dünən Bakıda keçirilmiş təqdimat mərasimində çıxış edən bp-nin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib: "AÇG, Şahdəniz, BTC və Cənubi Qafqaz Boru Kəməri Azərbaycanın dünyasəviyyəli layihələridir. Onların hər birinin tarixi Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti və xalqının gələcəyi naminə müdrikliklə yaratdığı strategiyadan başlayır. Faktiki olaraq, Azərbaycanın müasir tarixi və yeni neft dövrü məhz onun uzaqgörən rəhbərliyi altında formalaşıb. Bu kitabları nəşr etməklə biz Ulu Öndərin 100 illiyi münasibətilə qeyd olunan "Heydər Əliyev İli"nə öz töhfəmizi vermək və onun Azərbaycanın və bütün regionun inkişafındakı müstəsna rolunu ehtiramla yad etmək istəmişik.

Bu gün təqdim etdiyimiz kitablar illərlə aparılan geniş araşdırmaların və bu yeni tarixin yazılmasında iştirak edən şəxslərlə canlı müsahibə və söhbətlərin nəticəsidir. Fəxr edirik ki, bu töhfəmizlə Heydər Əliyevin bu möhtəşəm tarixdəki misilsiz rolu üçün minnətdarlıq və ehtiramımızı bir daha ifadə edə bildik".

Nəşrin müəllifi enerji məsələləri üzrə tanınmış ekspert, jurnalist, Neft Araşdırmaları Mərkəzinin rəhbəri və ən əsası, Azərbaycanın bütün yeni enerji dövrünün şahidi olmuş və bu sahədə müstəsna şəxsi biliyə malik olan İlham Şabandır.

Kitablar TEAS Press tərəfindən nəşr edilib. Araşdırma işləri və kitabların nəşri də daxil olmaqla layihənin ümumi dəyəri 154 157 AZN ($90 681) təşkil edir.

Azərbaycan. - 2023.- 27 sentyabr.- S.14.